Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**




# 100 il əvvəllərə gedib çıxan "Qafqaz Evi" ideyasının müəllifləri azərbaycanlılar olub...

**Qafqazın aborigen sakinləri olan Azərbaycan türkləri zaman-zaman bölgədə öz nüfuzlarını qoruyub saxlayıblar. Min illər, yüz illər olduğu kimi bu gün Azərbaycan xalqı, Azərbaycan dövləti Qafqazın əsas aparıcı xalqı, dövləti olaraq tarix səhnəsindədir.**

Gəlmə erməniləri çıxmaq şərti ilə burada tarixən yaşayan bütün Qafqaz xalqları, dünən olduğu kimi, indi də sülhün, əminamanlığın, bölgədə birgəyaşayışın tərəfdarıdır. Ermənilər bizim torpaqlara XIX əsrdə köçürülüb və bu toplumun Qafqazla heç bir tarixi genetik bağı yoxdur.

Bir məqamı qeyd edək ki, Qafqazın inkişafı, burada əbədi sülhün, əminamanlığın qorunmasına yönələn ideyaların demək olar ki, əksəriyyəti Azərbaycanda doğulub və bu ideyaların gerçəkləşməsi üçün xalqımız mücadilələr verib.

Bu gün də çox aktual olan "Qafqaz Evi" ideyası da məhz Azərbaycanda yaranıb və tarixi yüz ilə dayanan "Qafqaz Evi" ideyasının müəllifi görkəmli Azərbaycan ziyalıları, dövlət xadimləri olub. Bu ideya Cumhuriyyət dövründə də gündəmdə olub.

**"Qafqaz Evi" ideyası necə yarandı?**

AVCİYA-nın vitse-prezidenti, professor, siyasi icmalçı Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan bütün dövrlərdə xalqlararası münasibətlərin yüksək səviyyədə inkişafına böyük töhfələr verib: "Postsovet məkanında baş verən milli münaqişələr və bundan çıxış yolları barədə düşünərkən çox zaman XX əsrin əvvəllərinə qayıtmalı oluruq. Əlamətdar hal odur ki, Azərbaycan ziyalıları 100 il əvvəl də bunun çıxış yolunu göstəriblər. Hələ Avropa Birliyi, Avropa Şurası, eləcə də digər beynəlxalq təşkilatların yaradılması gündəmdə olmadığı bir vaxtda Azərbaycan ziyalıları "Qafqaz Evi" ideyasını irəli sürüblər. Bu ideyanı irəli sürənlər Azərbaycanın görkəmli ziyalıları, mütəfəkkirləri, dövlət xadimləri Həsən bəy Zərdabi, Məhəmməd Əmin Rəsulzadə, Əli Bəy Hüseynzadə, Əhməd Ağaoğlu olub. Bu məsələdə Azərbaycan xalqının hərtərəfli istedada malik olan övladı, dahi bəstəkarı, jurnalist, siyasətçi Üzeyir Hacıbəyovun rolu xüsusi qeyd edilməlidir".

**"...Əgər "Qafqaz Evi" ideyası həyata keçsəydi, indi Qafqaz Avropa Birliyi kimi bir məkan olardı"**

M.Zülfüqarlı hesab edir ki, "Qafqaz Evi" ideyasının zamanında həyata keçməsi bütün regiona əbədi sülh, əminamanlıq qazandırardı, lakin Qafqaza yamaq olan ermənilərin maneçiliyi üzündən bu ideya hələ də həyata keçməyib: "Fikrimcə, "Qafqaz Evi" ideyası həyata keçsəydi, indi Qafqaz Avropa Birliyi kimi bir məkan olardı. Burada insanlar firavan yaşayardı, münaqişələr, dağıntılar olmazdı. Məcburi qaçqın, köçkün problemi yaşanmazdı. Biz bu modeli digər regionlara da məsləhət görərdik, yaxud onlar bizdən nümunə götürərdilər.

"Qafqaz Evi" ideyası ondan ibarətdir ki, Qafqazda yaşayan xalqlar, xüsusən də 1918-ci ildə Cumhuriyyət yaratmış üç xalqın - Azərbaycan, gürcü və erməni xalqının bölgədə birgəyaşayış ideyasıdır. Bu ideya zaman-zaman Azərbaycan və Gürcüstanın timsalında özünü müsbət yöndə göstərib. Azərbaycanın Gürcüstanla heç bir problemi yoxdur, müttəfiq, dost ölkə kimi dünya bazarlarına neftin ixracını həyata keçirirlər. Bundan qonşu ölkə kimi Gürcüstan da bəhrələnib. Amma bu ideyaya işğalçı Ermənistan dəstək vermədi. Bütövlükdə götürəndə bu ideyanın həyata keçməsinə ermənilər mane oldu, amma ermənilərin içində az sayda da olsa bu ideyanı dəstəkləyənlər vardı. Məsələn, Zaqafqaziya Seymi daxilində olan erməni siyasətçilər bu ideyanı dəstəkləyirdilər. Amma şovinistlər, daşnaklar buna qarşı çıxırdılar. Ermənilər Qafqazın aborigen sakinləri deyil, onlar bura çar Rusiyası tərəfindən köçürülüb. Bu ideyanın həyata keçməsinə Sovet hökuməti də mane olub, imkan verməyib. Soruşa bilərlər ki, Sovet dövründə Azərbaycan, Gürcüstan və Ermənistan arasında, demək olar ki, sərhəd yox idi, sərbəst şəkildə hansı respublikada istəyirdin gedib yaşayırdın. Bəli, bu var idi. Amma bu, Sovet ideologiyası çərçivəsində mümkün olurdu. Sovet rejimi öz siyasətinə uyğun imkan yaradırdı. Amma narazılıq yaranırdı. Çünki Azərbaycan kimi sərvəti olan respublika dotasiya ilə yaşayan Ermənistanı yedizdirməli idi. Yəni Moskva bizdən alıb Ermənistana verirdi, bunu da "qardaşlıq", "dostluq" kimi qələmə verirdi".

**"Əsas odur ki, "Qafqaz Evi" ideyası var"**

M.Zülfüqarlı deyir ki, dünya dəyişir, dünya siyasətində yeniliklər, dəyişimlər baş verir, baş verənləri hamı bilir. Ekspertin sözlərinə görə, müasir dövrdə biz əgər "Qafqaz Evi" ideyasından danışırıqsa Azərbaycan siyasiləri Qərb ölkələrinin inteqarsiyasına uyğun "Qafqaz Evi" ideyasının inkişafına diqqət yetirməlidir. O, hesab edir ki, bu gün Fransa, Almaniya və digər Avropa ölkələri üçün demək olar ki, çox problemlər həll olunub və bunu Qafqaza da tətbiq etmək olar. "Mənə elə gəlir ki, bunun tətbiq ancaq Rusiyanın imperiyapərəst siyasətdən əl çəkməsi və dinc qonşuluq siyasətinə keçməsi ilə mümkün olar. Buna görə isə Rusiyada demokratik qüvvələrin hakimiyyətə gəlməsi lazımdır. Əsas odur ki, "Qafqaz Evi" ideyası var. Bu təkcə üç Cənubi Qafqaz ölkələrini əhatə etmir, Şimali Qafqaz xalqlarını da əhatə edir. Bu barədə təcrübə də var, ideoloji müzakirələr də mövcuddur. Bunun həyata keçirilməsi yolları da göstərilib. Sadəcə olaraq müasir dövrdə indiki Rusiyanın yürütdüyü imperiya siyasəti buna imkan vermir. Artıq Ermənistanda Qərb yönümlü siyasətçilərin hakimiyyətdə olması ümid verir ki, gələcəkdə bu ideyanın həyata keçirilməsinə imkanlar yaranacaq. Yəni forpost ölkə olan Ermənistan Rusiyanın təsir dairəsindən çıxandan sonra Qafqazda çox şeylər dəyişə bilər və dediyimiz "Qafqaz Evi" ideyası da həyata keçə bilər. Buna inanmaq lazımdı. Çünki biz bu günkü Avropanı götürsək Fransa ilə Almaniya hər iki dünya müharibəsində bir-birinə düdüşmən olublar. İngiltərə ilə Fransa yüzillik müharibə aparıblar və indi dinc şəraitdə yaşayırlar, çox zaman nümunə göstərilirlər. Demək istəyirəm ki, Azərbaycan-Ermənistan müharibələri, münaqişələri o demək deyil ki, sülh yaratmaq mümkün deyil. Yaratmaq mümkündür. Bunun nümunələrini Avropa ölkələri göstərib. Bizim regionda da bunu bərpa etmək mümkün olacaq və "Qafqaz Evi" ideyası da bunun ideoloji abzasını təşkil edir"-deyə M.Zülfüqarlı qeyd etdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**